**“İki sahil”.-**2011.-28 sentyabr.-N 177.-S.7.

# Ulu öndərin şah əsəri Müstəqil Azərbaycan

**1993-cü il oktyabrın 3-də Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. İlk iş ordunun möhkəmləndirilməsindən başlandı. 1993-cü il noyabrın 1-də Dövlət Müdafiə Şurası yaradıldı. Orduya xalq yardımı genişləndi. Azərbaycan ordusunun döyüş hazırlığının yüksəldilməsi rəhbərliyin - Heydər Əliyevin bilavasitə nəzarəti altında idi. 1994-cü ilin əvvəllərində Milli Ordunun əməliyyatları nəticəsində Füzuli rayonunun Horadiz qəsəbəsi, 22 kənd, bir çox yaşayış məntəqəsi erməni faşistlərindən azad edildi. Heydər Əliyevin apardığı uğurlu xarici siyasət nəticəsində**
**1994-cü il may ayının 12-də atəşkəs əldə edildi.**

1994-cüil sentyabrın 20-də Prezident Heydər Əliyevin təşəbbüsü ilə iqtisadi və siyasi təfəkkürün bəhrəsi olan, Azərbaycan xalqının həyatında qlobal əhəmiyyətə malik "Əsrin müqaviləsi" imzalandı. Bu illərin özündə belə Heydər Əlirza oğlu Azərbaycan xalqının müstəqilliyini boğmağa çalışanlara qarşı mübarizə aparırdı: Müstəqil və bölünməz Azərbaycan naminə! O nə öz milli mənsubiyyətini unutdu, nə də xalqını Azərbaycan xalqının xilası naminə özü demişkən: "Yönümüz Şərqə olsa da, yolumuz Qərbədir!"

Ulu öndərin rəhbərliyi altında hazırlanan Müstəqil Azərbaycanın ilk Konstitusiyası 1995-ci il noyabrın 12-də xalqın keçirdiyi referendum nəticəsində qəbul edildi. Zaman bu qanunun nə qədər kamil bir sənəd olduğunu təsdiqlədi. Müstəqil dövlətimiz öz demokratik mahiyyəti ilə ümumavropa dəyərlərindən faydalandı və Azərbaycan xalqı öz həqiqətlərini dünyaya bəyan etmək imkanı qazandı.

Müstəqil Azərbaycan hüquqi dövlət qururdu. Hüquqi dövlət quruculuğunun mühüm addımlarından biri olaraq 1995-ci ilin 12 noyabrında demokratik parlament seçkiləri keçirildi:125 nəfərdən ibarət ilk parlament yaradıldı.

Bu böyük insanın bu illər ərzində dövlət müstəqilliyini qorumaq və iqtisadi-siyasi həyatı inkişaf etdirmək üçün gördüyü işlər saysız-hesabsızdır. Xalqın sevgisinin nəticəsi olaraq Heydər Əliyev 1998-ci il oktyabrın 11-də ikinci dəfə Azərbaycan Respublikasının prezidenti seçildi. Artıq Azərbaycan tərəqqi və inkişaf yolunda idi.

Bu illər ərzində təhsilə, səhiyyəyə, incəsənətin bütün sahələrinə xüsusi diqqət yetirildi. 50-ci illərdə mürtəce ədəbiyyat elan olunaraq oxunması qadağan edilən "Kitabi-Dədə Qorqud" dastanı layiq olduğu qiyməti aldı. 1999-cu ildə YUNESKO səviyyəsində "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyi qeyd edildi.

2003-cü il yanvar ayının 2-də ümummilli liderin fərmanı - "Azərbaycan Respublikasında dövlət dili haqqında" qanun qüvvəyə mindi.

Bəli, Heydər Əlirza oğlu Əliyevin yaratdığı, gördüyü işlər saysız-hesabsızdır.

Bu gün Azərbaycan xalqının xoşbəxtliyi ondadır ki, ümummilli lider Heydər Əliyevin yolunu onun layiqli davamçısı İlham Əliyev cənabları davam etdirir. Bu siyasi kursun davamı olaraq 2003-cü il avqustun 4-də Azərbaycanın müasir tarixində yeni mərhələnin başlanğıcı qoyuldu: dərin biliyə, dünyagörüşünə, yüksək idarəetmə bacarığına malik olan gənc lider İlham Heydər oğlu Əliyev Azərbaycan Respublikasının Baş naziri təyin edildi. 2003-cü il oktyabrın 15-də İlham Əliyev səsçoxluğu ilə Azərbaycan Respublikasının Prezidenti seçildi. Ümummilli lider Heydər Əliyevlə başlanan intibah yeni liderin şəxsində məntiqi davamını tapdı və bu intibah o qədər universal, çoxşaxəlidir ki, onu tam əhatə etmək , bütünlüklə qələmə almaq, demək olar ki, qeyri- mümkündür. Başqa dövlətlərin 80 illik tərəqqisi Azərbaycanda 8 ilə (2003-2011) sığdı. Bu 8 il ərzində Azərbaycan mədəniyyəti, elmi, təhsili, səhiyyəsi, daxili-xarici siyasəti, beynəlxalq əlaqələri görünməmiş tərəqqiyə qədəm qoydu. Yollar abadlaşdırıldı, idman və mədəniyyət kompleksləri quruldu, yeni iş yerləri açıldı, quruculuq işləri görünməmiş dərəcədə vüsət aldı. Xüsusilə gənclərin öz bilik və bacarıqlarını, təbii potensialını Vətənə yararlı şəkildə reallaşdırmasını, cəmiyyətdə layiqli yerlərini tutmasını təmin etmək üçün Prezident İlham Əliyev tərəfindən keçirilən Azərbaycan Respublikasının Dövlət Gənclər siyasəti öz işinə başladı.

Belə ki, hər bir ölkənin, millətin xoşbəxt gələcəyinin iqtisadi meyarlar, təbii ehtiyatlar və hər hansı başqa sərvətlərlə deyil, məhz təhsil, mövcud kadr potensialı, təhsil sistemindəki vəziyyət, ziyalı təbəqəsi ilə ölçüldüyünü bildirən cənab İlham Əliyev 2003-cü ildən Azərbaycanın təhsil sisteminin dünya standartları səviyyəsinə qaldırılması üçün 16 Dövlət Proqramı imzalamışdır. Bunların sırasında 2005-ci ilin 30 avqust tarixində imzalanmış və artıq böyük uğurla yüzdən çox bəndi həyata keçən "Azərbaycan gəncliyi 2005-2009-cu illərdə" və "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" adlı Dövlət proqramları xüsusilə vurğulanmalıdır. Düşünürəm ki, bu proqramlar potensial gücü, innovativ üstünlükləri olan minlərlə gəncin özünütəsdiq, özünəinam bəyannaməsi oldu. Müharibə şəraitində yaşayan dövlətin gəncləri olaraq bizlərə xalqımızın tarixinə, milli mənəvi, həmçinin ümumbəşəri dəyərlərə, rəmzlərə qarşı daha çox diqqət aşılayan proqram sayəsində ilk öncə gənclərin məşğulluğu məsələsi, xaricdə təhsil, yeni iş yerlərində gənclərə üstünlük verilməsi, ipoteka proqramı vasitəsilə gənclərin güzəştli kreditli mənzillə təmini, xidmət, turizm sektorunda yerli kadrlara üstünlük verilməsi, təhsilə maksimum diqqət və böyüməkdə olan gənc nəslin mənəvi dəyərlərinin tərbiyəsi məsələsi də yer alacaq.

Böyüməkdə olan gənc nəslin yüksək təhsil alması məqsədilə irəli atılan addımlardan biri də "2007- 2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"dır. Prosesin əsası Azərbaycan Xalq Cümhuriyyəti dövründə qoyulmuş, lakin 1969-cu ildə Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə daha

sistemli hal almışdır. Bu gün proqram çərçivəsində 800-dən çox gəncin respublikadan kənarda təhsilinin ən önəmli məqsədi həmin ölkələrdə gələcək Azərbaycan diasporunun formalaşdırılması, Azərbaycan və azərbaycançılıq ideologiyasının təbliği ilə ölçülür.

Təhsilə, Azərbaycan gəncliyinə qayğının nəticəsidir ki , bu gün şəhər və bölgələrimizdə son 5-6 ildə 2000-dən çox yeni məktəb binası tikilmiş, korpuslar inşa olunmuş, məktəblərin maddi-texniki bazası gücləndirilmiş, informasiya və kommunikasiya texnologiyaları ilə təmin olunmuşdur. "2011-2013-cü illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı çərçivəsində yüzlərlə məktəbə yeni həyat verilmişdir.

Bu gün nəinki Azərbaycan təhsilində, o cümlədən bütövlükdə Azərbaycan mədəniyyətində gedən islahatların mərkəzində dayanan bir şəxsi - Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın bu sahədə gördüyü işlərdən, çəkdiyi zəhmətdən yazmamaq mümkün deyil. Mehriban xanım Əliyevanın təşəbbüsü ilə 2005-ci ildən bugünədək "Yeniləşən Azərbaycana yeni məktəb layihəsi" çərçivəsində 370 məktəb inşa olunub. 370 adi rəqəm deyil, bu, qəlbi gözəl təhsil almaq, böyük insan olmaq ümidilə döyünən yüz minlərlə körpənin, yeniyetmənin gələcəyinin təminatı, gözəl arzuların çin olmasıdır.

Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə 2008-ci ilin yayında Bakıda YUNESKO-nun "Dünyada savadlılığın dəstəklənməsi" üzrə regional konfransının keçirilməsi də ümumilikdə Azərbaycanın təhsil sahəsinin mühüm beynəlxalq tədbirlərin mərkəzinə çevrildiyini əminliklə söyləməyə imkan verir.

Ecazkar, zəngin Azərbaycan musiqisinin dünyaya tanıdılması, təbliği işində Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti Mehriban xanım Əliyevanın "Azərbaycan muğamları" layihəsi çərçivəsində həyata keçirdiyi islahatlar da birmənalı olaraq böyük hadisədir. 2005-ci ilin martından Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında muğam axşamının təşkili artıq bir ənənəyə çevrilib. Azərbaycan Mədəniyyətinin Dostları Fondu tərəfindən muğam ensiklopediyası yaradılıb, 24 muğam ustadının yer aldığı "Qarabağ xanəndələri" albomu hazırlanıb. Azərbaycan muğamı YUNESKO-nun qeyri-maddi irs siyahısına daxil edilib. 2008-ci ildə dünyada analoqu olmayan Muğam evinin əsası qoyulub. Azərbaycanın musiqi mərkəzi olmasının sübutudur ki, 2009-cu ildən başlayaraq Qəbələ Musiqi Festivalına ev sahibliyi edir.

Dünyanın bir çox qabaqcıl dövlətlərinin büdcə gəlirinin bir hissəsini turizm sektoru təşkil etdiyindən, ölkəmizdə də bu sahə inkişaf etdirilib. 2011-ci ilin "Turizm ili" elan olunması və Qusar rayonunda Şahdağ Qış-Yay turizm kompleksinin inşası, Heydər Əliyev Fondunun dəstəyi ilə 2008-ci ildə Abşeronun ən qədim insan məskənlərindən olan Qala qəsəbəsində Dövlət Tarix- Etnoqrafiya Qoruğunun ərazisində Arxeoloji-Etnoqrafiya Muzey Kompleksinin yaradılması ölkəmizi turizm mərkəzlərindən birinə çevirməyə xidmət edir.

Azərbaycan mədəniyyətinə qayğının nəticəsidir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan Respublikasının milli Ensiklopediyasının nəşri haqqında" və "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 2004- cü il 12 yanvar tarixli sərəncamlara əsasən Azərbaycan ədəbiyyatının ən gözəl bədii nümunələri oxucuların istifadəsinə verilmişdir.

AŞ PA-nın sessiyalarında çıxış edən Prezident ilham Əliyev hər zaman dünya dövlətlərinin nəzərini bir milyondan çox didərgini olan, 20 fa iz torpağı işğala məruz qalan, elan olunmamış haqsız müharibə şəraitində yaşayan xalqına, Vətəninə yönəltmiş , öz çıxış və fəaliyyətinin əsas istiqamətini Qarabağa ədalət prinsipi üzərində qurmuşdur. Prezident bütün beynəlxalq çıxış və görüşlərində Ermənistanın işğalçı və terrorçu dövlət olduğunu bəyan etmiş, onun işğal etdiyi Dağlıq Qarabağda, eləcə də digər Azərbaycan ərazilərində narkotik maddələrin qanunsuz istifadəsini ifşa etmişdir. Hər zaman Azərbaycana-Xocalıya, 20 Yanvar faciəsinə layiq olduğu ədaləti tələb edən Prezident, təsadüfi deyil ki, Azərbaycanın dövlət büdcəsindən ən çox vəsaiti ordu quruculuğu və təhsil sisteminə ayırır.

Azərbaycan Heydər Əliyevin şah əsəridir. Azərbaycanı bütöv, müstəqil, qalib görmək - bu idi Heydər Əliyevin arzusu. O, bu arzunun reallaşması üçün bir insan ömrünə sığmayacaq qədər çox işlər gördü, çox mübarizələr apardı və nə yaxşı ki, bu ideyalar bu gün Heydər Əliyev məktəbinin, siyasətinin ən layiqli nümayəndəsi Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyev tərəfindən həyata keçməkdədir.

Sonda fikrimi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ümummilli lider Heydər Əliyev şəxsiyyətinə, fəaliyyətinə verdiyi dəyərlə bitirmək istəyirəm: "Heydər Əliyev qalib idi. O, bütün döyüşlərdən qalib kimi çıxıb, heç kim ona qalib gələ bilməmişdir. Ona zaman da qalib gələ bilmədi. Bu gün Heydər Əliyev bizimlə deyil, ancaq o bizim ürəyimizdə yaşayır, onun əməlləri, ideyaları yaşayır, onun siyasəti yaşayır və əbədi yaşayacaqdır!"

**Lamiyə Cəlilova**

**Məqalə Yeni Azərbaycan Partiyasının Azərbaycanın dövlət müstəqilliyinin 20-ci ildönümü ilə əlaqədar gənclər arasında keçirdiyi "Müasir Azərbaycan-20"**